# *PEDAQOGİKA*

## Pedaqoji səriştəlilik modelləri

**Mehbanu Əlimurad qızı Verdiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**E-mail:** Mehbanuverdiyeva@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. M.İ. İlyasov,
p.ü.f.d. P.M. Həsənova

**Açar sözlər:** model, modelləşdirmə, səriştə, səriştəlilik, baza komponentlər, peşə komponentləri, kvalifikasiya

**Ключевые слова:** модель, моделирование, компетенция, компетенция, базовые компоненты, профессиональные компоненты, квалификация

**Key words:** model, modeling, competence, competence, basic components, professional components, qualification

Peşə səriştələri geniş olduğu kimi, onların təsnifatları da zəngindir. Ona görə də bu anlayışın mənimsənilməsini asanlaşdırmaq üçün bir sıra modellər hazırlanmışdır. Modeldə aşağıdakı şərtlərin yerinə yetirilməsi zəruri hesab edilir: səriştələrin həm nəzəri, həm də praktik tərəflərinin öz əksini tapması, müəllimin pedaqoji fəaliyyətinə xas olan həm ənənəvi, həm də müasir keyfiyyət və xüsusiyyətləri əhatə etməsi, pedaqoji fəaliyyətdə müasir tələblərə cavab verən, dövr üçün səciyyəvi olanların önə çəkilməsi.

Bir sıra araşdırmalarda təhsil sahəsində peşəkar müəllimin səriştəlilik modelləri təhlil olunur. Həm xarici, həm də yerli təcrübəni özündə cəmləşdirən bu modellərdə ierarxik prinsip gözlənilir, səriştəliliyin əsas komponentlərini əhatə edən dörd alt sistem ümumiləşir. *“Model- “nümunə” mənasını da daşımaqla (fransızca - modele) ikili məna kəsb edir: təbiətdə və cəmiyyətdəki hər hansı bir prosesin təsviri sxemini və sosial reallığın müəyyən fraqmentini”* (6, s. 453).

V.Q. Pervutinski “model” anlayışını tələbənin müəyyən səviyyədə hazırlığını, şəxsi və ixtisas-peşə xüsusiyyətlərinin sistemli təsvirini özündə ifadə edən quruluş kimi səciyyələndirir. Bu da modelin çevik mövqeyini, mobilliyini əmək bazarında təmin edəcək, həmçinin peşə sahəsində əmək funksiyalarının müvəffəqiyyətlə həllinə, peşə mühitinə adaptasiya olmasına gətirib çıxaracaq. Əslində, tələbənin peşə səriştəliliyinin işlənmiş modeli öz əsasını pedaqoqun peşə səriştəliliyi modelindən götürür. Burada vahid sistemin bir-biri ilə əlaqəli olan komponentləri öz əksini tapır (7, s. 285).

Pedaqogikada peşə ixtisas təhsili ilə bağlı ayırd edilən səriştələri qruplaşdırmaq üçün bir çox tədqiqatçılar, o cümlədən M.İ. İlyasov (1), S.A. Drujilov (3) və b. model anlayışından istifadə etmişlər. Modellərdə mütəxəssisə lazım olan biliklər, bacarıqlar, keyfiyyətlər əks olunur. Məsuliyyət, ümumi mədəni savad, psixoloji sağlamlıq və s. keyfiyyətlər, spesifik peşə fəaliyyətini müəyyənləşdirir. Ancaq əmək bazarında daha çox başqa yanaşma tərzi özünü göstərir. Belə ki, hazırkı dövrdə təkcə mütəxəssisin özəlliklərinin deyil, əməyin keyfiyyətinin qiymətləndirilməsinə daha çox ciddi ehtiyac duyulur. Bu sahədə A.V. Xutorskinin hazırladığı

peşə səriştələri modeli maraq doğurur.




**Şəkil 1.**

**A.V. Xutorskinin peşə səriştəliliyi modeli**

A.V. Xutorski səriştəliliyi üçpilləli ierarxiya (aşağı rütbəlilərin yuxarı rütbəlilərə tabe olma qaydası) şəklində təklif edir (4, s. 63):

*1. Əsas pillə - ümumi təhsilin (əyani hədəf, konkret məqsəd) məzmununa aid edilir.*

*2. Ümumfənn pilləsi - təhsil sahələri və tədris fənlərinin dairəsinə aid edilir.*

*3. Fənn pilləsi - əvvəlki iki pillə ilə müqayisədə bu pillədə konkret fənnə aid mövzuların öyrənilməsi imkanları genişlənir.*

A.O. Mehrabov isə peşə səriştələri modelinin 3 tərəfini şərh edir:

*1) subyektiv - pedaqoji fəaliyyətdə tələbənin şəxsi fəallığını xarakterizə edir;*

*2) obyektiv - əmək fəaliyyət prosesinin qurulması və həyata keçirilməsi;*

*3) predmet - cari və son nəticələrə inteqrasiyaya nailolma [2, s. 90].*

Qarşılıqlı, bir-birini tamamlayan səriştəlilik modelləri də vardır. Onlara aşağıdakı modelləri nümunə göstərmək olar:

I. Ümummədəni - kulturoloji model.

II. Akmeoloji model.

III. Avropa universitetləri assosasiyalarının modeli (European University Association – AUA) və b. Sonuncuda (III - AUA) əsas səriştələr (K) sırasından üç mühüm qrupa aid olanlar seçilərək ayırd edilir: sosial səriştələr (1); dəyər-mənəvi səriştələr (2) və informasiyalı-texnoloji səriştələr (3)

Bunların hər üçü hazırda tələbənin səriştəlilik modelinin tərkibinə daxil edilir. Modeldə müasir pedaqoqun fərqləndirici əlamətləri: daimi özünütəkmilləşdirməsi, özünütənqidlə, erudisiyası (dərin bilik, geniş məlumat) və yüksək əmək mədəniyyəti onun ustalığı və müasir səriştələrə aid olanlar əhatə edilib. Burada pedaqoqun şəxsi səriştəliliyi onun praktik fəaliyyəti zamanı milli mənəvi, bəşəri dəyərlər şəklində özünü göstərir. Bu dəyərlərdə müəllimin ünsiyyət və münasibəti də əlavə olunur. Pedaqoqun şəxsi mədəniyyəti baza komponentləri və peşə

komponentlərindən ibarətdir.

Müasir dövrdə müəllimin özünütəhsili, özünü inkişaf etdirməsi olmadan şəxsi inkişafı mümkün deyildir. Müəllimin şəxsi inkişafı tələb edir ki, müasir müəllim etalon keyfiyyətlərini bilsin və onlara yiyələnmiş olsun. Bunlara əsasən aşağıdakılar aid edilə bilər: peşə inkişafının fərdi xüsusiyyətlərini dərk etməyi bacarmaq; öz güclü tərəflərini möhkəmləndirmək, zəif tərəfləri isə düzəltmək və ya aradan qaldırmaq, pedaqoji axtarışlarda yaradıcı olmağı bacarmaq. Qeyd etməliyik ki, tələbələrin peşə səriştəliliyinin inkişafına mane olan cəhətlər də vardır:

— müəllimin müasir informasiya vasitələrindən yetərincə istifadə etməməsi;

— müasir tələbə və valideynlərin psixologiyasını yetərincə bilməməsi.

Müəllimin şəxsi səriştəliliyi praktik fəaliyyəti zamanı milli mənəvi, bəşəri dəyərlərin realizəsinə təsir göstərir. Bu dəyərlərə onun münasibəti ifadə olunur. Deyilənlər ona gətirib çıxarır ki, pedaqoqun şəxsi mədəniyyətinin yeni modelinin qurulması vacibdir. Bu da müasir cəmiyyətin tələblərinə cavab verməlidir. Bu baxımdan müəllimin pedaqoji-peşə səriştəliliklərini aşağıdakı müddəalar şəklində əks etdirə bilərik: sosial-psixoloji, peşəkar-kommunikativ, ümumi pedaqoji, fənn üzrə, idarəetmə, informasiya-kommunikativ, innovasiyalı fəaliyyət və kreativ səriştəlilik. Bütün bunlar tələbələrdə peşə səriştəliliyinin artırılması üçün olduqca vacibdir, lakin başlıca məsələ ondan ibarətdir ki, bunlar tələbələrdə peşə səriştəliliyinin kompleks şəkildə formalaşması üçün tam yetərli deyil. Deyilənləri nəzərə alaraq T.N. Knyazeva və L.E. Semyonova professioqramlarda praktik fəaliyyətin məzmununu, xarakterini əhatə edən problemlərin cəmləşdirilməsinin lazım gəldiyini bildirirlər. Belə ki, professioqramın praktik mahiyyəti yalnız tələbə üçün peşə sahəsi üzrə vacib olan bu və digər səriştələrin ümumiləşdirilmiş modelini vermək deyildir. Məqsəd, həm də təlimin adekvat məzmununu, təşkilati və qiymətləndirmə vasitələrini ayırd etməkdir.

Pedaqoji kadr hazırlığında bu məsələlərin nəzərə alınması müasir tələblərə cavab verən müəllimin səxsiyyətinin formalaşdırılmasına əlverişli zəmin yaradır. Müasir dövrdə, ölkəmizdə hüquqi, demokrativ dövlət quruculuğu şəraitində bacarıqlı müəllim kadrlarının hazırlığı xüsusi aktuallıq kəsb edir. Cəmiyyətimizdə köklü dəyişikliklərin baş verməsi müəllimlərin peşə səriştəliliyinin artırılmasını tələb edir. Praktik müəllimlərin bu məsələləri mənimsəməsi onların fəaliyyətinə aydın istiqamət verir, bu da təlim-tərbiyənin keyfiyyətinin yüksəlməsi ilə nəticələnir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində hazırda həyata keçirilən Ömürboyu Təhsil üzrə Kvalifikasiyalar Çərçivəsində "Kvalifikasiya standartları" adı altında tələbələrin peşə fəaliyyətində bilavasitə icra etməli olduqları bir çox səriştələr qruplaşdırılır.

Burada 17 ixtisas əhatə edilir. Biz onlardan ikisini - Azərbaycan dili və ədəbiyyatı müəllimliyini və ibtidai sinif müəllimliyini seçdik. 2019-1020-ci illərdə "Azərbaycan Respublikası Təhsil Nazirliyinin əsas benefisiarı olduğu "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" layihəsi Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən həyata keçirilir". Layihənin icra müddəti 2018-ci il yanvar ayından 2020-ci il iyun ayınadək olan dövrü əhatə etmişdir. Layihə Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğun olaraq milli kvalifikasiyaların sistemləşdirilməsi üçün bir vasitə olmaqla təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmış və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğunun təhlil olunmasına xidmət edəcəkdir" (5).

Layihə ilə yaxından tanış olduqda aydın olur ki, onun ümumi məqsədi Azərbaycanda təhsil və təlim sisteminin keyfiyyətini artırmaq, Avropa və Beynəlxalq təcrübəyə uyğun olaraq təhsilin inkişafı strategiyasını yerinə yetirməkdir. Layihənin əsas hədəfləri 24 ixtisas üçün

peşə standartının və kurikulumlarının hazırlanması, karyera yönümünə dəstək, peşə xəritələrinin hazırlanması olmuşdur.

Təhlillərdən belə aydın olur ki, ali pedaqoji təhsildə tələbələrdə peşə səirştələrinin formalaşdırılması prosesi olduqca əhatəli və mürəkkəbdir. Bu mürəkkəbliyi ilk növbədə müəllimdən tələb olunan, daha konkret desək, cəmiyyətin ondan tələb etdiyi peşə səriştələri yaradır. Həmin səriştələrin əhatə edən modellərlə tanış olduqda gözümüzn qarşısında ideal müəllim portreti canlanır. Halbuki, heç bir müəllim ideal ola bilmir və bu mümkün də deyildir. Belə olduğu halda biz həmin modellərdə təklif edilən səriştələri ümumiləşdirərək təhsil mühitimiz üçün ən münasib model təklif edə bilərik (şəkil 2.).




**Şəkil 2.**

**Tələbələrdə formalaşdırılması vacib olan pedaqoji səriştələr modeli**

Beləliklə, müəllimin peşə səriştələri ilə bağlı hazırlanan modellərdə verilən əsas xüsusiyyətləri belə ümumiləşdirə bilərik.

1. Koqnitiv (dərketmə) səriştələr. Təklif etdiyimiz modelin ən çox ağırlıq yükü bu səriştələr kompleksinin üzərinə düşür. Yuxarıda apardığımız təhlilərdən ayırdığımız bir çox səriştələri bu qrupa daxil etmək daha məqsədəuyğun görünür.

2. Kommunikativ şəriştələr: məqsədə çatmaq üçün kommunikasiyanın nailiyyətlərindən səmərəli istifadə etmək, çıxışlarda, müzakirə və dialoqlarda özünün şəxsi mövqeyini qoruyub saxlamaq, insanların dəyərlərinə, mövqe müxtəlifliyinə hörmətlə yanaşmaq, kommunikasiya texnologiyalarından istifadə edərək zəruri məlumatlar axtarmaq və s.

3. Davranış səriştələri: müəllim nə qədər bilikli və bacarıqlı olsa belə, onun uğurları davranış mədəniyyəti ilə bilavasitə bağlıdır. Ona görə də hesab edirik ki, tələbələrdə formalaşdırılmalı olan səriştələr içərisində davranış səriştələri də öndə durmalıdır.

4. Texnoloji səriştələr: texnoloji qaydaları mənimsəmək: təlimatlar üzrə, qayda və izahları başa düşmək, mənimsəmək, həyata keçirmək, İKT vasitələrinə və müasir təlim texnologiyalarına bələd olmaq, onları praktik fəaliyyətdə tətbiq etmək, tələbələri də bu prosesə fəal şəkildə qoşmaq.

5. Praktik səriştələr: təlimin strategiyası anlayışına aid olan bütün pedaqoji anlayışlar barədə məlumatlı olmaq, təlim məqsədini dərk edərək tapşırıqlar və müstəqil işlər əsasında ona doğru istiqamətləndirmək.

6. Şəxsi özünüinkişaf səriştələri: qarşıya qoyulmuş vəzifələrin həlli üçün bilik və bacarıqlarındakı çatışmazlıqları aşkara çıxarmaq, məhsuldar və səmərəli fəaliyyət üçün yeni vərdiş və bacarıqlar mənimsəmək, müxtəlif vasitələrdən yararlanaraq zəruri məlumatları əldə etmək, bilikləri və təcrübəni genişləndirmək, öz fəaliyyətində, ünsiyyət və münasibətlərində düzəlişlər etmək, müasir kommunikasiya vasitələrindən yararlanmaq.

**Məqalənin aktuallığı.** Peşə səriştələri anlayışının mənimsənilməsi üçün bir sıra modellər mövcuddur. Bu sahədə aparılan araşdırmalarda təhsil sahəsində peşəkar müəllimin səriştəlilik modellərinin təhlili mühüm əhəmiyyət kəsb edir. Məqalənin də aktuallığı onun bu kimi vacib bir mövzuya həsr edilməsi və bununla bağlı həm xarici, həm də yerli təcrübəni özündə ehtiva edən nümunələrin göstərilməsidir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə müasir dövrdə pedaqoji ixtisaslar üzrə təhsil alan tələbələrdə formalaşdırılmalı olan səriştə modellərindən bəhs edilir və bu modellərdə kommunikativ səriştələr də göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. İlyasov M.İ. Müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı, Elm və təhsil, 2018, 208 s.

2. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı, Mütərcim, 2007.

3. *Дружилов С.А*. Освоение студентами модели профессии и профессиональной деятельности как необходимое условие профессионализации // Образовательные технологии и общество, 2010, т. 13, № 4, с 299-318.

4. Хуторской В. Ключевые компетенции как компонент личностно-ориентированной парадигмы // Народное образование, 2003, № 2, с. 58-64.

5. https://www.sosial.gov.az/post_380841-3810 //"Azərbaycanda Milli Kvalifikasiyalar Çərçivəsinin İcrasına Dəstək" layihəsi.

6. http://www.e-qanun.az/framewor // Müəllimin etik davranış qaydaları. Bakı, 2014.

7. http://www.akmeo.rus.net // Первутинский В. Г. Современные подходы к развитию профессиональной компетентности студентов.

8. http:// www.oaji.net, 2014 // Князева Т.Н., Семенова Л.Э. Профессиональная подготовка практического психолога: проблемы и варианты решения.

**М.А. Вердиева**

## Педагогические модели компетентности

## Резюме

В статье говорится о моделях компетенций, которые должны формироваться у студентов педагогических специальностей в современную эпоху. На основании проведенного анализа определено, что таких моделей много. Их объединяет то, что они охваты-

вают основные компетенции. Таким образом, в моделях компетенций предпочтение отдается когнитивным компетенциям. Им необходимо планировать свою педагогическую деятельность, анализировать ситуацию, с которой они сталкиваются, моделировать деятельность и т.д. Кроме того, в моделях особое внимание уделяется коммуникативным навыкам. К числу таких компетенций относятся умение эффективно использовать достижения коммуникации, сохранять свою личную позицию в выступлениях, дискуссиях и диалогах, уважение к ценностям людей и позиционному разнообразию. В моделях другие компетенции сгруппированы под названием поведения.

**M.A. Verdiyeva**

## Pedagogical competency models


## Summary

The article talks about the competency models that should be formed in the students studying pedagogical specialties in the modern era. Based on the conducted analysis, it is determined that there are many such models. What they have in common is that they cover core competencies. Thus, cognitive competencies are preferred in competency models. They need to plan their pedagogical activity, analyze the situation they encounter, model the activity, etc. includes. In addition, communication skills are also emphasized in the models. Among such competencies are to effectively use the achievements of communication, to maintain one's personal position in speeches, discussions and dialogues, respect for people's values and positional diversity is included. In the models, other competences are grouped under the name of behaviour.


**Redaksiyaya daxil olub:** 04.07.2022